# Qəbələdə Azərbaycan–Koreya arxeoloji ekspedisiyası başa çatmaq üzrədir

İyunun 29-da Qəbələ rayonunda Azərbaycan—Koreya arxeoloji ekspedisiyasının yekun işlərinə dair Çuxur Qəbələ kəndində yerləşən arxeoloji mərkəzdə mətbuat konfransı keçirilmişdir.





Mətbuat konfransından əvvəl Koreya Respublikasının Azərbaycandakı səfiri Çoi Suk-İn, Qəbələ arxeoloji ekspedisiyasının rəisi, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, professor İlyas Babayev, Koreya ekspedisiyasının rəhbəri, Seul Milli Universitetinin professoru Yi Seon-Bok, SEBA (Seul—Bakı) Azərbaycan—Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının sədr müavini İrina Zeynalova, arxeoloqlar, tarixçilər, KİV nümayəndələri qazıntı aparılan ərazilərə baxmışlar.

Məlumat verilmişdir ki, Azərbaycan—Koreya arxeoloji ekspedisiyası 2009-cu ilin yayında SEBA (Seul—Bakı) Azərbaycan—Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının təşəbbüsü, maliyyə və təşkilatı dəstəyi ilə başlamışdır. O vaxtdan etibarən Qafqaz Albaniyası dövlətinin paytaxtı, sonralar isə Azərbaycan və Şərqin tarixində əhəmiyyətli şəhər olmuş Qəbələnin üç tarixi ərazisində (eramızdan əvvəl IV—bizim eranın XVIII əsrləri) paleolit, eneolit və erkən tunc dövrlərinə aid hər il arxeoloji tədqiqatlar aparılır.

Bildirilmişdir ki, bu arxeoloji tədqiqatlar AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları və Koreyanın bir neçə elmi mərkəzinin mütəxəssislərindən ibarət komanda tərəfindən aparılır. Bu elmi mərkəzlərdən Seul Milli, Çunqbuk Milli, Hanşin, Hanseo universitetlərinin və digərlərinin adlarını çəkmək olar. 2013-cü ildə isə tədqiqatlar sahəsi 1500 kvadratmetr olan şəhərin antik ərazisində davam etdirilmişdir. Dördüncü qazıntı sahəsində eramızdan əvvəl III—II əsrlərə aid tikili qalıqları, içərisində taxıl qalığı olan təsərrüfat küpləri, saxsı qab fraqmentləri tapılmışdır. Əvvəlki üç oval tikilinin yanında yerləşən dördüncü oval tikilinin də qazıntısı qədim Qəbələnin möhtəşəm memarlığından xəbər verdiyindən uğurlu hesab edilə bilər.

2013-cü ildə Qəbələ şəhərinin I—XI əsrlərə aid ərazisi olan Səlbirdə bir neçə yerdə—şimali-qərb, qərb və cənubi-qərb istiqamətlərində tədqiqatlar aparılmışdır. Qazıntılar nəticəsində şəhərin müdafiə istehkamlarının bəzi hissələri, müxtəlif növ tikililər (şəxsi evlər, istehsalat tikililəri, hovuz, su kəməri, çirkab suları xətti), qəbirlər, eləcə də katakomba tipli qəbirlər, saxsı qablar, bəzək əşyaları aşkara çıxarılmışdır. Bu tapıntılar I—XI əsrlərə aid şəhərsalma və şəhər həyatının səviyyəsini tədqiq etməyə imkan verir.

Məlumat verilmişdir ki, 2013-cü ildə tapılmış ən maraqlı maddi-mədəniyyət nümunələrinin saxlanılması və mütəxəssislər tərəfindən laboratoriya işlərinin aparılması üçün lazımi şərait yaradılmışdır. Həmin nümunələr Çuxur Qəbələ kəndindəki arxeoloji mərkəzin sərgi salonunda nümayiş olunur. 2013-cü ildəki arxeoloji qazıntının iyulun sonunda yekunlaşması nəzərdə tutulur.

Qazıntıların nəticələri ilə tanışlıqdan sonra keçirilən mətbuat konfransında KİV nümayəndələrini maraqlandıran suallar cavablandırılmışdır.

Mətbuat konfransında rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanova iştirak etmişdir.

Sonda iştirakçılar arxeoloji qazıntı işlərinə aid filmə baxmışlar.

**Fotolar S. Umuyevindir.**

# «FİLLİGAR» qrupu Qəbələdə




Amerikanın Azərbaycandakı səfirliyinin təşkilatçılığı ilə məşhur «Filligar» rok qrupunun üzvləri Qəbələdə Fitnes istirahət mərkəzində yerli sakinlər qarşısında geniş proqramla çıxış etmişlər.

Xatırladaq ki, qrupun üzvləri Qəbələdən əvvəl Şəkidə «İpək yolu» IV Beynəlxalq musiqi festivalında çıxış etmişlər. «Filligar» qrupunun musiqisi bir çox məşhur rok və pop musiqilərin və qrupların yaradıcılığından qaynaqlanmışdır. 2013-cü ildə «Filligar» qrupu dünya ölkələri arasında mədəniyyətin və incəsənətin dialoqunu, qarşılıqlı mədəni əlaqələrin inkişafını, habelə Amerika Musiqi mədəniyyətini təbliğ etmək üçün ABŞ Dövlət departamenti tərəfindən mədəni səfir kimi bir sıra Şərqi Avropa ölkələrinə qastrol səfərləri etmişdir.

Rok qrupunun çıxışı tamaşaçılar tərəfindən maraqla qarşılanmış, həmçinin konsertdə iştirakçılara Amerikanın tarixinə aid suallar verilmişdir. Düzgün cavab verənlərə hədiyyələr təqdim olunmuşdur.

**Foto S. Umuyevindir.**

# Müstəqil Dövlətlər birliyi ölkələri incəsənət ustalarının Qəbələdə Qala-konserti

«MDB-nin mədəniyyət paytaxtları—2013» dövlətlərarası proqramının təntənəli açılış və Qəbələnin 2013-cü ildə MDB-nin mədəniyyət paytaxtı seçilməsi ilə bağlı sertifikatın təqdim edilməsi mərasiminin sonunda rayon mədəniyyət mərkəzində Müstəqil Dövlətlər Birliyi ölkələri in-



cəsənət ustalarının Qala-konserti olmuşdur. Konsertdə Azərbaycan Dövlət Rəqs Ansamblının, Belarus «Xoroşki» Dövlət Əməkdar xoreqafiya ansamblının, Qırğısıstan Nurdina Tuqelova adına «Ak Maral» Milli Akademik Rəqs Ansamblının, Qazağıstan «Altınay» Dövlət Rəqs Ansamblının, habelə Moldaviyanın, Rusiyanın, Tacikistanın, Özbəkistanın, Ukraynanın incəsənət ustaları maraqlı proqramla çıxış etmişlər.



Konsertin proqramını «Sodrujestvo» Rusiya Dövlət Konsert Kompaniyası hazırlamışdır.

**«QƏBƏLƏ».**

**Fotolar S. Umuyevindir.**